**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

# QƏRAR

**№** 57-4

**Bakı şəhəri** **28 dekabr 2020-ci il**

## "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının struktur bölmələrinin əsasnamələrinin təsdiq edilməsi haqqında" Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyasının 2018-ci il 09 iyul tarixli, 49-4 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Komitənin fəaliyyəti ilə bağlı mediada məlumatların dəqiq, həqiqi və reallığı əks etdirməsinə, o cümlədən ictimaiyyətlə əlaqələr sahəsində işlərin təşkilinə və tənzimlənməsinə, Komitənin fəaliyyətinin kütləvi informasiya vasitələrində daha təkmil formada işıqlandırılmasına, cəmiyyətə mütəmadi olaraq informasiya vermək öhdəliyinin daha peşəkar səviyyədə həyata keçirilməsinə və bu istiqamətdə səmərəliliyin artırılmasına ehtiyac yaranmışdır.

Bu məqsədlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədri tərəfindən "İctimaiyyətlə əlaqələr" sektorunun yaradılması üçün aidiyyəti struktur bölməyə müvafiq tədbirlərin görülməsi tapşırılmışdır.

Tapşırığın icra edilməsi məqsədi ilə Komitə sədrinin 11 dekabr 2020-ci il tarixli, 254 saylı əmri ilə "İctimaiyyətlə əlaqələr" sektoru yaradılmışdır.

Komitədə struktur dəyişikliklərinin keçirildiyini nəzərə alaraq, Komitə Aparatının fəaliyyəti haqqında əsasnaməyə (İnformasiya və Analitik araşdırmalar şöbəsi haqqında əsasnaməyə) dəyişikliklərin edilməsi zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 14.2-ci və 17-ci bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyasının 2018-ci il 09 iyul tarixli, 49-4 nömrəli Qərarı ilə təsdiq edilmiş Komitənin İnformasiya və Analitik araşdırmalar şöbəsi haqqında Əsasnamə (8 nömrəli əlavə) yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).
2. İctimaiyyətlə əlaqələr sektoruna tapşırılsın ki, əsasnamədən irəli gələn məsələlərin həyata keçirilməsini təmin etsin və Komitənin fəaliyyəti ilə bağlı cəmiyyətə mütəmadi olaraq informasiya vermək öhdəliyinin daha peşəkar səviyyədə həyata keçirilməsinin təkmilləşdirilməsi üçün təkliflər hazırlayıb Komitə rəhbərliyinə təqdim etsin.
3. Kadr və Kargüzarlıq şöbəsinin müdiri Elmira Qurbanlı Qərarın surətini Komitənin aidiyyəti şöbələrinə təqdim edilməsini təmin etsin.
4. Qərarın icrasına nəzarət Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya və aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**